# Şərqlə Qərb arasında körpü yaradan alim

***Oktyabrın 10-da görkəmli şərqşünas alim, Azərbaycanda ərəb ədəbiyyatı üzrə ilk elmlər doktoru və ilk professor qadın olan Aida İmanquliyevanın dünyaya gəlişindən yetmiş doqquz il keçir.***

Aida İmanquliyeva 1939-cu il oktyabrın 10-da tanınmış mətbuat xadimi Nəsir İmanquliyevin ailəsində doğulmuşdur. Gələcəkdə dünya şöhrətli şərqşünas olacaq Aida İmanquliyeva 1957-ci ildə Bakıdakı 132 nömrəli tam orta məktəbi əla qiymətlərlə başa vurmuş, elə həmin il Azərbaycan Dövlət Universitetinin (indiki BDU) şərqşünaslıq fakültəsinə ərəb dili və ədəbiyyatı ixtisası üzrə qəbul olunmuşdur.

1962-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) şərqşünaslıq fakültəsini bitirən Aida İmanquliyeva 1966-cı ildə namizədlik, 1989-cu ildə doktorluq dissertasiyası müdafiə etmişdir. Aida İmanquliyeva Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda kiçik elmi işçilikdən bu elm ocağının direktoru vəzifəsinədək yüksəlmişdir. O, keçmiş SSRİ-də Şərqşünaslıq Cəmiyyəti rəyasət heyətinin, Şərq Ədəbiyyatının Tədqiqi üzrə Əlaqələndirmə Şurasının üzvü idi. Uzun illər Bakı Dövlət Universitetinin şərqiünaslıq fakültəsində pedaqoji fəaliyyətlə də məşğul olan Aida xanım Sovet İttifaqında və Azərbaycanda yeni ərəb ədəbiyyatı kursunun əsas yaradıcılarından biri olmuşdur.

Aida manquliyeva elmi-təşkilati fəaliyyətində yüksək ixtisaslı ərəbşünas kadrların hazırlanmasını diqqət mərkəzində saxlamışdır.

Onun elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcılıq üslubunun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapması tədqiq olunmuşdur. Bu da nəinki ərəb ədəbiyyatının, həmçinin bütün yeni Şərq ədəbiyyatının gələcəkdə tədqiqi üçün çox mühüm zəmin yaradır.

Bu gün dünyanın bütün ölkələri, o cümlədən də ərəb Şərqi ilə geniş əlaqələr yarandığı bir vaxtda, bu ölkələrin həyatının hər bir sahəsi ilə daha yaxından tanış olmaq ehtiyacı duyulur və bu ehtiyacı aradan qaldırmaqda Aida xanım İmanquliyevanın elmi əsərlərinin özünəməxsus yeri və əhəmiyyəti vardır.



Üç monoqrafiya ("Mixail Nuaymə və "Qələmlər birliyi", Moskva,1975; "Cübran Xəlil Cübran", Bakı, 1975; "Yeni ərəb ədəbiyyatının korifeyləri", Bakı, 1991) və 70-dən artıq elmi məqalənin müəllifi olan Aida İmanquliyeva Şərq filologiyası sahəsində yazılmış bir çox elmi əsərlərin redaktoru olmuşdur.

Aida xanım İmanquliyevanın doğulduğu, böyüdüyü və gəlin gəldiyi iki ailənin Azərbaycan xalqının ədəbi-mədəni fikrində öz yeri və sanbalı vardır. Belə bir mühit Aida xanımın ədəbi-elmi yaradıcılıqla dərindən məşğul olması üçün mənəvi zəmin yaratmışdır.

Aida xanımın atası Nəsir İmanquliyev Azərbaycanın çox məşhur mətbuat nümayəndələrindən biri olmuşdur. Nəsir müəllim uzun illər "Bakı" və "Baku" axşam qəzetlərinin redaktoru işləmişdir. Aida xanım görkəmli Azərbaycan yazıçısı, alim və pedaqoq Mir Cəlal Paşayevin ocağına gəlin köçmüşdür.

Boya-başa çatdığı mötəbər ziyalı mühitinin məlum təsirinin nəticəsidir ki, akademik Cəmil Quliyevin dediyi kimi, Aida xanımın həyat və yaradıcılığı milli ziyalı qadınlar içərisində bənzərsizliyi, yüksək dəyərli xüsusiyyətləri ilə seçilirdi.

Azərbaycanın, millətimizin XX yüzillikdə tarixi uğurlarından biri, ictimai-siyasi, mədəni həyatın bütün sahələrində fenomen kimi qərarlaşmış müasir Azərbaycan qadınıdır. Əgər Azərbaycan xalqının XX əsrdə yetirdiyi ən layiqli qadınlarının siyahısı tərtib edilsə, şübhəsiz bu siyahıda yer alanlardan biri Aida xanım İmanquliyeva olardı. Əhatəli elmi fəaliyyəti ilə yanaşı, Aida xanımın gözəl, nümunəvi ailəsi olmuş və o, analıq borcunu yerinə yetirərək cəmiyyət üçün ləyaqətli övladlar tərbiyə etmişdir

Bu gün Aida İmanquliyevanın cismani ömrü övladlarının, nəvələrinin həyatında davam edir. Özü isə əsərlərində yaşayır.

Tədqiqatçıların haqlı olaraq qeyd etdikləri kimi, Aida xanım ərəb mühacir ədəbiyyatının beynəlxalq miqyasda ən görkəmli, ən sanballı tədqiqatçısı olmuşdur. Bunu nəinki Azərbaycan və keçmiş sovet ərəbşünasları, hətta Avropa şərqşünasları, ərəblərin özləri belə, etiraf edirlər.

Bütün mənalı ömrünü Azərbaycan şərqşünaslığının inkişafına həsr etmiş Aida İmanquliyevanın yaradıcılığı daim öyrəniləcəkdir. Görkəmli şərqşünas alimin haqqında çox yazılıb və yəqin ki, bundan sonra daha çox yazılacaqdır. O, bir şəxsiyyət kimi hər yazıda yeni bir şəkildə canlanacaq, nəsil-nəsil oxucuların ürəyində, yaddaşında əbədi yaşayacaqdır.

**«Qəbələ»**

# Gənclərin gələcəyi düzgün peşə seçimindən başlayır

***Respublikamızın bütün təhsil ocaqlarında yeni dərs ili başlamışdır.***

***Məlum olduğu kimi respublikamızda peşə təhsilinin inkişaf etdirilməsi prioritet məsələlərdən birinə çevrilib.- Bu sahədə görülən işlər, keçirilən uğurlu layihələr öz bəhrəsini verir.***

Peşə təhsilinin inkişafı üçün qəbul edilən qərar və sərəncamlar, xüsusilə bölgələrdə müxtəlif peşə sahələrinin inkişafı üçün əlverişli imkan və şəraitin olması burada təhsilin səviyyəsinin yüksəldilməsi üçün stimul verir.

Son 2 il ərzində aparılan islahatlar nəticəsində peşə təhsili sistemində edilən dəyişikliklər, yeniliklər, əldə edilən uğurlar mütəmadi olaraq bölgələrdə yerli və xarici mütəxəssislərin iştirakı ilə keçirilən seminar və tədbirlərdə öyrənilir.

Keçirilən seminar və kurslara cəlb edilən müəllimlər əldə edtikləri bilikləri uğurla öz təcrübələrində tətbiq etmək bacarığı qazanırlar.

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzi keçən il olduğu kimi bu ildə Qəbələ Regional Asan Xidmət Mərkəzi vasitəsi ilə 2018- 2019 tədris ili üçün şagird qəbulu aparmışdır.

Tədris Mərkəzi 2018- 2019 dərs ilində turizm və otelçilik sahələri üçün 9 ixtisas üzrə mütəxəssis hazırlayacaq.

**Vüsalə QƏRİBOVA,**
**mərkəzinin psixoloqu.**

# Müəllim-ən yüksək ad

***5 oktyabr həyatını xalqın işıqlı gələcəyinə həsr edən müqəddəs peşə sahiblərinin günüdür. Bu tarixdə 1966-cı ildə UNESCO və Beynəlxalq Əmək Təşkilatının birgə təşkilatçılığı ilə çağırılan konfransda müəllimlərin peşə fəaliyyətinin şərtlərini təyin edən "Müəllimlərin statusu haqqında" ilk beynəlxalq sənəd imzalanmışdır. 1994-cü ildən isə həmin tarix UNESCO tərəfindən Ümumdünya Müəllimlər Günü kimi təsis edilmişdir. 5 oktyabr həmçinin BMT-nin beynəlxalq və ümumdünya günlər sisteminə daxildir. Hazırda bu tarix dünyanın 100-dən çox ölkəsində ümumdünya səviyyəsində, bəzi ölkələrdə isə müxtəlif tarixlərdə milli səviyyədə qeyd olunur. Ölkəmizdə isə bu tarix 1993-cü ildən qeyd edilir.***

Şəxsiyyətin ahəngdar inkişafı məktəbdə müəllimin üzərinə düşür. Müəllim cəmiyyətdə çox böyük rol oynayır. O, yaşlı nəslin təcrübəsini gənc nəslə ötürür. Tanınmış şəxsiyyətlər müəllimin əməyinə yüksək qiymət vermiş, müəllimi günəşə, bağbana, mühəndisə bənzətmişlər. Çünki o, günəş kimi gənc qəlbi və ağlı işıqlandırır, uşaqlara bağban qayğısı göstərir, mühəndis kimi insan qəlbinin layihəsini cızır.



Cəmiyyətin, millətin gələcəyi müəyyən mənada müəllimin əlindədir. Deyirlər ki, bir milləti məhv etmək üçün onun müəlliminin və həkiminin savadsız olması kifayətdir: biri milləti mənəvi cəhətdən, digəri isə fiziki cəhətdən şikəst edəcəkdir. Müəllimlik həm yaradıcı, həm də şərəfli işdir. Çünki o, öz həyatını xalqın, millətin gələcəyinə həsr edir.

Müəllimlik çətin, məsuliyyətli, eyni zamanda, şərəfli və müqəddəs bir peşədir. Müəllim insanı həyata hazırlayan, onun dünyagörüşünü, mənəvi dünyasını və ictimai-siyasi baxışlarını formalaşdıran müqəddəs varlıqdır. Xalqın tərəqqisi məktəbdən, məktəbin tərəqqisi isə müəllimdən başlayır.

Rayonumuzun ümumtəhsil məktəblərində 2300 nəfərə yaxın müəllim çalıçır. Onlar çətin və şərəfli peşələrinin öhdəsindən uğurla gəlirlər. Bunun nəticəsidir ki, rayonumuz uzun illərdir təhsilin səviyyəsinə görə ölkədə qabaqcıl yerini qoruyub saxlayır.

Bayramınız mübarək, əziz müəllimlər.

**"Qəbələ"**

# Beynəlxalq layihəyə start verilib



***Ötən ay Dövlət Turizm Agentliyinin dəstəyi və təmiz qida sahəsində dünya üzrə qlobal təşkilat olaraq fəaliyyət göstərən "Slou Fud"un (Slow Food) təşəbbüsü ilə "Azərbaycanda Böyük Qafqaz regionunun kənd ərazilərində dəyər zəncirinin yaradılmasının təkmilləşdirilməsi" adlı üçillik layihəyə start verilib.***

İlkin olaraq "Slou Fud" modellərinin tətbiqi üçün Şəki, Qəbələ, Şamaxı, İsmayıllı və Qax rayonları ərazisində təşkil edilməsi planlaşdırılan layihə çərçivəsində yerli qida məhsullarının istehlakının təşviqi üzrə milli kampaniyanın həyata keçirilməsi planlaşdırılıb.

Layihə aqro-biomüxtəliflik və mədəni irsin qorunması, yerli qastronomiyanın dəyərinin artırılması, əhalinin gəlirlərinin potensial davamlılığı ilə yanaşı, turistik məhsulların inkişafı kimi müxtəlif məsələləri əhatə edəcək.

# Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində yeni dərs ili başladı

***Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində yeni dərs ilinin başlanması münasibəti ilə toplantı keçirilib.***

***Dövlət himninin səsləndirilməsi ilə başlanan tədbirdə müəllim və şagird kollektivi ilə bərabər valideynlər, təhsil mərkəzi ilə əməkdaşlıq edən idarə və təşkilat rəhbərləri, digər qonaqlar iştirak edib.***




Təhsil mərkəzinin direktoru Azad Məmmədov giriş sözü ilə tədbiri açaraq tələbələri və qonaqları salamlayıb və mərkəzin fəaliyyəti, qarşıda duran məsələlər haqqında geniş məlumat verib. Direktor dərs ili münasibət ilə kollektivə xoş arzularını çatdırıb. Peşə Təhsili üzrə Dövlət Agentliyinin nümayəndəsi Rauf Feyzullayev, rayon icra hakimiyyətinin nümayəndəsi Absalam Hüseynov, Almaniya Texniki Əməkdaşlıq Cəmiyyətinin nümayəndəsi Məhəmməd Məmişzadə, rayon təhsil şöbəsinin nümayəndəsi Yaşar Nəzirov, Turizm və Otelçilik üzrə Tədris Mərkəzinin direktoru Eyvaz Kazımov, mərkəzin təhsil istehsalat işləri üzrə direktor müavini Camal Rəsulov tədbir iştirakçılarını təbrik ediblər. Valideynlərdən Ramiz Yolçuyev və Emin Baratoğlu övladlarının timsalında bütün şagirdləri təbrik edib, onlara öz səmimi arzularını bildiriblər.

Tədbirdən sonra qonaqlar təhsil mərkəzinin tədris və təlim şəraiti ilə tanış olublar.

**İntizar HİDAYƏTOVA,**
**təhsil mərkəzinin əməkdaşı.**
**İlkin Vəlizadə (foto).**